MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ

*Dayanıqlı inkişaf, cild 3, № 1, 2023*

UOT 342.051:351.82

# AZƏRBAYCANDA İNVESTİSYA QOYULUŞLARI ÜZRƏ HÜQUQİ BAZANIN GÜCLƏNDİRİLMƏSİ

**Mübariz Malik oğlu Məmmədli**
iqtisad üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət İqtisad Universiteti
mubariz.mammadli@unec.edu.az

***Xülasə:*** *İnvestisiyalar iqtisadiyyata yeni texnologiya, yeni idarəetmə üsulları, yeni iş yerləri, yeni məhsul və dünya bazarlarına çıxış kanalları yaradan əsas ünsürlərdən biridir. Dövlətlər daha əlverişli siyasi və iqtisadi şərait yaratmaqla, müxtəlif stimullaşdırıcı və qoruyucu tədbirlər həyata keçirməklə öz iqtisadiyyatlarına investisiyaları cəlb etməyə çalışırlar. Azərbaycan da ölkə iqtisadiyyatına investisiyaların cəlbediciliyini artırmaq üçün bu istiqamətdə hüquqi bazansını yeniləmişdir. Məqalədə Azərbaycanın investisiya qoyuluşları üzrə qəbul edilmiş qanunvericilik dəyişikliklərindən bəhs edilmişdir.*

***Açar sözlər****: qanun, investisya fəaliyyəti, dövlət tənzimləməsi, elektronlaşma, milli rejim*

## Giriş

İnvestisiya qoyuluşları bütün dünyada iqtisadi artım və inkişaf məqsədlərinin həyata keçirilməsi üçün zəruri və mühüm vasitələrdən biri hesab olunur. Xüsusilə birbaşa xarici sərmayə qoyulduqda, investisiyanı qoyan firmanın sərmayə qoyduğu ölkə ilə nisbətən uzunmüddətli əlaqələri yaranır. Başqa sözlə, xarici sərmayənin qoyulduğu ölkəni anidən tərk etməsi mümkün olmur. Bundan başqa, investisiyalar tez-tez yeni texnologiya, yeni idarəetmə üsulları, iş yerlərinin yaradılması, maliyyə sabitliyinin qorunması və dünya bazarlarına yeni çıxış kanalları kimi müxtəlif imkanlar yaradır [4, 7, 8]. Ona görə də ev sahibi ölkələr başda birbaşa xarici investisiyalar olmaqla, müxtəlif kapital qoyuluşlarını ölkəyə cəlb etməli və onlara hüquqi təminat verməlidirlər. Dövlətlər daha əlverişli siyasi və iqtisadi şərait yaratmaqla, müxtəlif stimullaşdırıcı tədbirlər həyata keçirməklə öz iqtisadiyyatlarına xarici investisiyaları cəlb etməyə çalışırlar.

Dövlət investisiya siyasəti aparmaqla və müxtəlif növ təşviqlərlə bir neçə məqsədə xidmət edir. Bunlardan biri iqtisadi məqsədlərdir. İqtisadi məqsədin təmin olunmasında əsas hədəf uzunmüddətli perspektivdə iqtisadi inkişafın təmin edilməsidir. Bu məqsəd çərçivəsində mühüm olan, qısa müddətdə məşğulluğu və iqtisadi gəliri təmin etməklə yanaşı uzun müddətdə iqtisadiyyata fayda verəcək hadisələri – müəyyən bir istehsal və öyrənmə prosesinin işə salınması, yeni texnologiya və ya istehsal strukturunun ölkəyə gətirilməsi, vərdişlər qazanılması, bazarın digər aktyorlarına nümunə olması kimi təsirlərin yayılmasıdır [3, 5, 6]. Digər məqsəd isə sosial məqsədlərdir. Burada birbaşa iqtisadi inkişafdan daha çox ictimai ehtiyacların ödənilməsi əsas amil kimi qəbul edilir. Buraya regional disbalansın aradan qaldırılması, hər kəsi əhatə edəcək xidmətin və ya məşğulluq siyasətinin bəzi növlərinin inkişafı daxildir. Dövlət belə bir siyasət həyata keçirməklə və bu sahələrə investisya cəlb etməklə, inkişaf etməmiş regionlarda özəl sektor üçün adətən sərfəli olmayan sahələri inkişaf etdirir.

Ölkələr tərəfindən iqtisadiyyatın müxtəlif sahələrində yerli və xarici investisiyalara birbaşa və ya dolayı yolla fayda verən təşviqlər təklif edilir. Bu təşviqlərə həvəsləndirici vergi güzəştləri, idxal rüsumundan azadolmalar, tədqiqatlar, cihazların istehsalı üçün ayrılan qrantlar və s. daxil edilə bilər. Bir çox həvəsləndirici proqramlar bacarıqların inkişafı, texnologiya transferi və yerli tərəfdaşlarla əməkdaşlıq vasitəsilə ölkələrin yerli sistemlərini və iqtisadiyyatlarını gücləndirmək üçün xarici investisiyaların yayılmasını asanlaşdırmaq məqsədi daşıyır [7, 9].

Beləliklə, yuxarıda qeyd edilənləri də nəzərə alaraq, ölkəyə investisiya qoyuluşlarının cəlbediciliyinin artırılmasını zəruri edən səbəbləri aşağıdakı kimi sistemləşdirə bilərik:

- cari kəsri azaltmaq məqsədilə yüksək qiymətə idxal olunan malların yerli istehsalının təmin edilməsi,
- texnologiyanın transferi,
- dəyər zəncirində mühüm yer tutan məhsulların istehsalı ilə əlavə dəyərin və rəqabət qabiliyyətinin artmasının təmin edilməsi,
- məşğulluq imkanlarının təmin edilməsi,
- investorların infrastruktur üçün investisiya qoyuluşlarına yüksək maraq göstərməməsi,
- regionlararası bərabərsizliyin aradan qaldırılması.

Azərbaycan da ölkəyə investisiya qoyuluşunu təşviq etmək məqsədilə bir çox əhəmiyyətli addımlar atmışdır. Bu tədbirlərdən biri investisiya qoyuluşlarının yaxşılaşdırılması üçün 2022-ci ildə qəbul edilmiş qanunvericilik sənədi olmuşdur. Məqalənin növbəti hissəsində yeni qanunvericilik sənədi və onun investorlara göstərəcəyi təsir haqqında məlumat veriləcəkdir.

**Azərbaycanda investisiya fəaliyyəti üzrə hüquqi bazanın möhkəmləndirilməsi**

Azərbaycanda investisiya qoyuluşlarının ölkə iqtisadiyyatına cəlb edilməsi və daima əsas prioritetlərdən biri olmuşdur. Belə ki, dövlət siyasətində bu məqsədin iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi olduğu həmişə qeyd edilmişdir. Müstəqillik dövründən etibarən daima təkmilləşdirilən siyasət nəticəsində ölkə iqtisadiyyatına qoyulan investisiyanın həcmi yüksək olmuşdur.

**Cədvəl 1**

**İqtisadiyyata yönəldilən investisiyalar, mln.manat**

| **İllər** | **1995** | **2000** | **2005** | **2010** | **2015** | **2019** | **2020** |
|---|---|---|---|---|---|---|---|
| Bütün mənbələr üzrə investisiya qoyuluşları (xarici investisiyalar nəzərə alınmaqla) | 480,7 | 1289,8 | 6733,4 | 14118,9 | 20057,4 | 24986,6 | 22484,0 |
| Xarici investisiyalar: | 331,4 | 829,5 | 4628,5 | 6619,7 | 10998,9 | 12119,5 | 10413,2 |
| Daxili investisiyalar | 149,3 | 460,3 | 2104,9 | 7499,2 | 9058,5 | 12867,1 | 12070,8 |

**Mənbə:** https://stat.gov.az/source/finance/[2]

Cədvəl 1-dən görüldüyü kimi, 1995-ci ildən etibarən ölkə iqtisadiyyatına qoyulan ümumi investisiyanın həcmi 480,7 mln.manatdan 2019-cu ildə 24986,6 mlyn.manata yüksəlmişdir. 2020-ci ildə isə azalaraq 22484,0 mln.manat həcmindəolmuşdur [2].Verilən illər üzrə dinamika göstərir ki, ölkəyə qoyulan ümumi investisiya həcminin artmasında həm daxili, həm də xarici investisiya qoyuluşlarının rolu əhəmiyyətli olmuşdur.

İqtisadi fəaliyyət növləri üzrə əsas kapitala yönəldilmiş vəsaitlərin həcminə nəzər saldıqda, bu məbləğin həm sahibkarlıq subyektlərinin miqyasına, həm də iqtisadi fəaliyyət növlərinə görə fərqləndiyi görülür.

**Cədvəl 2**

**İqtisadi fəaliyyət növləri üzrə əsas kapitala yönəldilmiş vəsaitlərin dəyəri, min manat**

| **İqtisadi fəaliyyət növləri** | **Cəmi** | **2019** | | | **Cəmi** | **2020** | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | **Mikro** | **Kiçik** | **Orta** | | **Mikro** | **Kiçik** | **Orta** |
| İqtisadi fəaliyyət növləri üzrə cəmi | 3.422.128,8 | 515.494,4 | 494.182,3 | 2.412.452,1 | 2.674.052,1 | 970.194,9 | 380.384,9 | 1.323.472,3 |
| o cümlədən: | | | | | | | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 78.650,8 | 1.053,0 | 59.565,7 | 18.032,1 | 190.818,4 | 2.261,1 | 100.995,8 | 87.561,5 |
| Sənaye | 86.365,8 | 18,0 | 11.681,4 | 74.666,4 | 223.895,9 | 1.452,3 | 17.541,1 | 204.902,5 |
| Tikinti | 1.017.967,9 | 503.453,8 | 254.145,1 | 260.369,0 | 1.257.496,7 | 613.342,5 | 244.229,9 | 399.924,3 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 7.702,3 | 1.324,8 | 2.610,5 | 3.767,0 | 16.957,0 | 3.113,5 | 861,9 | 12.981,6 |
| Nəqliyyat və anbar təsərrüfatı | 106.978,9 | 100,0 | 1.317,9 | 105.561,0 | 93.530,0 | - | 6.616,1 | 86.913,9 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 12.416,4 | 428,0 | 2.288,4 | 9.700,0 | 1.467,0 | 1.051,0 | 136,2 | 279,8 |
| İnformasiya və rabitə | 1.135,7 | - | 595,3 | 540,4 | 562,0 | 2,0 | 44,1 | 515,9 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 4.649,2 | - | 12,8 | 4.636,4 | 1.560,3 | - | 802,2 | 758,1 |
| Təhsil | - | - | - | - | 136,5 | - | - | 136,5 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 78.358,8 | - | 73,8 | 78.285,0 | 515.093,5 | 10,0 | 948,7 | 514.134,8 |
| Digər sahələr | 2.027.903,0 | 9.116,8 | 161.891,4 | 1.856.894,8 | 372.534,8 | 348.962,5 | 8.208,9 | 15.363,4 |

**Mənbə:** https://stat.gov.az/source/entrepreneurship//[2]

Cədvəl 2-dən göründüyü kimi, Azərbaycanda 2019-cu ildə iqtisadi fəaliyyət növləri üzrə cəmi 3.422.128,8min manat əsas kapitala vəsait yönəldilmişdir. 2020-ci ildə bu məbləğ 2.674.052,1 min manata düşmüşdür. Bu azalma iqtisadiyyatın bir sıra fəaliyyət növləri üzrə də müşahidə edilmişdir [2]. Azalmanın baş verdiyi iqtisadi fəaliyyət sahələri – nəqliyyat və anbar təsərrüfatı, turistlərin yerləşdirilməsi və ictimai iaşə, daşınmaz əmlakla əlaqədar əməliyyatlar, informasiya və rabitə sahələri olmuşdur. Digər tərəfdən, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, sənaye, tikinti, ticarət, nəqliyyat vasitələrinin təmiri, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi sahəslərində isə əsas kapitala qoyulmuş investisyaların həcmi artmışdır.

Digər tərəfdən, 2019-cu illə müqayisədə 2020-ci ildə iqtisadi fəaliyyət növləri üzrə cəmi investisiya qoyuluşlarında mikrosahibkarlıq subyektlərinin payı əhamiyyətli dərəcədə yüksəlmişdir. Kiçik və orta sahibkarlıq subyektlərinin payı isə azalmışdır. O da qeyd edilməlidir ki, mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin əsas kapitala yönəltmiş olduğu investisiyalarda 2020-ci ildə baş verən kəskin dəyişikliklər COVİD-19 pandemiyası, həmçinin bəzi sahibkarlıq subyektlərinin il ərzində ölçü kateqoriyalarının dəyişməsi ilə bağlı olmuşdur. Məsələn, mikrosahibkarlıq subyektlərinin sənaye sahəsi üzrə 2019-cu ildə əsas kapitala vəsait qoyuluşu 18,0 min manatdan 2020-ci ildə 1.452,3 min manata yüksəlmişdir. Ancaq verilən dövrdə mikrosahibkarlıq subyektləri ilə yanaşı digər subyektlərin investisiya qoyuluşlarında da artım olmuşdur. Belə ki, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsi üzrə orta sahibkarlıq subyektlərinin 2019-cu ildə əsas kapitala vəsait qoyuluşu 18.032,1 min manatdan 2020-ci ildə 87.561,5 min manata, yəni kəskin həcmdə yüksəlmişdir.

Ölkədə investisiya mühitini daha da yaxşılaşdırmaq və növbəti illərdə bu həcmi daha da yüksəltmək məqsədilə hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində ciddi addımlar atılmışdır. Bunlardan biri 22.06.2022-ci il tarixində "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsidir. Qəbul edilmiş bu qanun yerli və xarici investisiyaların ölkəyə cəlb edilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Bu qanun "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu və "Xarici investisiyanın qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu əsasında formalaşmışdır [1]. Belə ki, o, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in reallaşdırılması baxımından vacibdir. Ölkədə investisiya fəaliyyəti üzrə aparılan dövlət tənzimləməsində əsas məqsəd yerli və xarici investisiyaları ölkəyə cəlb edərək, dayanıqlı iqtisadi inkişafa nail olmaqdır. Eyni zamanda dayanıqlılığı təmin etmək üçün rəqabətqabiliyyətli istehsal sahəsi formalaşmalı, qorunmalı, həmçinin xidmət sahələri inkişaf etdirilərək genişlənməlidir. Ölkənin gələcək hədəflərini nəzərə alaraq, iqtisadiyyatda dəyişikliklərin tətbiq olunması üçün hüquqi bazanın zəruri tənzimləmələri əhatə etməsi vacibdir. Xüsusilə dövlət investisiyaları ilə dövlət şirkətlərinin fəaliyyəti kənarda qalmamalı, onların iqtisadi səmərəsinin yüksəldilməsi və bu sahədə fəaliyyətlərin şəffaflıq səviyyəsinin artırılması zəruridir.

"İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda qoyulacaq investisiyalar üzrə dövlət tənzimlənməsi müxtəlif sahələri – mülkiyyətin toxunulmazlığını, qanunçuluğu, insan və vətəndaşların hüquq və azadlıqlarının qorunmasını və təmin edilməsini, həmçinin konfidensial məlumatların qorunmasını əhatə edir. Yeni qəbul edilmiş qanunla əsas hədəf dövlətin investisiya fəaliyyətini təşviq etmək və bu məqsədlə müəyyən təşviqedici tədbirləri həyata keçirməkdir. Bu tədbirlərə aşağıdakılar aiddir:

- vergilər də daxil olmaqla digər dövlət ödənişlərində güzəştlərin müəyyənləşdirilməsi;
- kreditlərin daha uyğun şərtlərlər daxilində, güzəştlə verilməsi;
- sənaye parkları, xüsusi iqtisadi zonalar kimi müəyyən statusa sahib zonaların yaradılması;
- dövlət ilə özəl sektör arasında tərəfdaşlıq əməliyyatlarının genişləndirilməsi və uyğun mexanizmin tətbiqi;
- onlayn platformalar yaradılması və "bir pəncərə" prinsipinin tətbiqi. Bu platformalarda həm yerli, həm də xarici investorlara Azərbaycanın sahib olduğu investisiya potensialı haqqında əhatəli məlumatın verilməsi, eyni zamanda investisiya fəaliyyətini tənzimləyən bütün normativ hüquqi aktların, investisiya layihələrinin və potensial tərəfdaşların mövcudluğu haqqında məsləhətlərin verilməsi və s. aiddir.

Görüldüyü kimi, geniş miqyaslı bu tədbirlərlə ölkədə investisiya fəaliyyətinin təşviqi hədəflənir. Dövlət tənzimləməsi ilə ölkədə əlverişli investisiya mühiti yaradılaraq, azad rəqabət mühiti gücləndirilərək investorların hüquqları və mənafeləri qorunacaqdır. Digər mühim məsələ isə investisiya fəaliyyəti zamanı investorlara bərabər fürsət imkanları yaradılacaqdır. Dövlət əmlakının özəlləşdirilməsini də əhatə edən bu hüquqi sənəd, bu prosesin restrukturizasiyası və sağlamlaşdırılmasını, həmçinin də investorlara göstərilən xidmətlərin mərkəzləşdirilməsi və elektronlaşdırılması üçün "bir pəncərə" prinsipi əsas götürüləcəkdir.

Bu da xüsusi olaraq vurğulanmalıdır ki, Azərbaycanda investisiya fəaliyyəti sahəsində hazırlanacaq layihələr üçün prioritet istiqamətlər seçilmişdir. Buraya, əsasən, iqtisadiyyatda texnoloji tutumu yüksək olan innovativ fəaliyyətlərin inkişafı və ətraf mühitin qorunması və təbii resurslardan səmərəli istifadəni təmin edən ekoloji cəhətdən təmiz texnologiyalardan istifadə göstərilə bilər. Eyni zamanda ölkə əhalisinin sağlamlığını mərkəzə qoyan fəaliyyətlər, əhali arasında müasir dövrün tələb etdiyi biliklərin və bacarıqların formalaşması, həmçinin də regionlararası inkişaf balansın qorunması üçün uyğun investisiya layihələrinin tətbiqi aiddir.

İnvestisiya qoyuluşları ilə bağlı diqqət çəkən digər mühim məsələ isvestisiya qoyuluşlarının müxtəlif sektorlar arasında dəyişən dinamikasıdır. Ölkə üçün prioritet hesab edilən sahələrə investisiya qoyuluşunun artırılması üçün investorlara göstərilən xidmətlərin mərkəzləşdirilməsi və elektronlaşdırılması və "bir pəncərə" prinsipinin istifadəsi düzgün istifadə edildiyi halda öz tövhəsini verə bilər. Bu zaman həm daxili, həm də xarici investisiyalar cəlb edilə, infrastruktur

sahələrinə strateji maliyyə axini təmin edilə, qeyri-neft sektorunun şaxələndirilməsi mümkün ola bilər.

Kənd təsərrüfatı, informasiya və rabitə başda olmaqla iqtisadiyyat üçün prioritet olan sahələrə qoyulan daxili investisiyanın ümumi çəkidə azlığı və onun aradan qaldırılması üçün dövlət tərəfindən xüsusi əhəmiyyət daşıyan addımlar atılmışdır. Bunlara nümunə olaraq, investorların hüquq və azadlıqlarının qorunmasına təminatın verilməsi, investorlara və onların qoyacaqları vəsaitə qarşı əsassız yollardan ya da ayrı-seçkilik yaradacaq davranışın olması, hədə-qorxu gəlinməsi, həmçinin təqib və zorakılığın tətbiqi qanunla yolverilməz hesab edilir.

"İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununun 12-ci maddəsində isə investorların və onların qoyacaqları vəsaitin cəlb ediləcəyi rejim müəyyən edilir. Həmin maddədə qeyd edilir ki, "*… oxşar vəziyyətlərdə xarici investorlara və onların investisiyalarına yerli investorlara və onların investisiyalarına tətbiq edilən rejimdən az əlverişli olmayan rejim (milli rejim) tətbiq edilir. … oxşar vəziyyətlərdə bir xarici investora və onun investisiyasına digər xarici investorlara və onların investisiyalarına tətbiq edilən rejimdən az əlverişli olmayan rejim (ən əlverişli rejim) tətbiq edilir.*

Qəbul edilmiş yeni Qanun xaricə sərbəst şəkildə köçürüləcək məbləğlərin mənbəyini də müəyyən edir və aşağıdaki kimi sıralayır (Maddə 14.2):

- mənfəət, dividendlər, faizlər, royaltilər və digər gəlirlər;
- investisiyanın tam və ya qismən satışından və ya digər şəkildə özgəninkiləşdirilməsindən, yaxud investisiya fəaliyyətinə tam və ya qismən xitam verilməsindən irəli gələn qazanc;
- kompensasiya və zərərin ödənilməsi üzrə məbləğlər;
- əməkçi miqrantların investisiya ilə əlaqədar əldə etdikləri qazanc;
- bu Qanunla qadağan olunmayan digər ödəmələr.

Beləliklə, investisiya fəaliyyəti ilə əlaqəli qəbul edilmiş yeni qanun ölkədə investisiya mühitini daha da sağlamlaşdırmağa kömək edəcək və iqtisadiyyata qoyulacaq kapitalın həcminin artmasına müsbət tövhə verəcəkdir.

**Nəticə**

Azərbaycanda investisiya fəaliyyəti üzrə dövlət siyasətinin əsas məqsədini yerli və xarici investisiyaların qoyduğu vəsait hesabına ölkədə dayanıqlı iqtisadi inkişafın təmin edilməsi, rəqabətqabiliyyətli istehsal və xidmət sahələrinin inkişafı, yeni texnologiyaların və innovasiyaların tətbiqinin genişlənməsi, qeyri-neft sektorunun şaxələnməsi formalaşdırır. Bu məqsədlə, ölkədə investisiya fəaliyyəti üzrə əlverişli investisiya mühiti qurulmağa və qorunmağa çalışılır. Azad rəqabət mühitinin təmin edilməsi, investisiyaların qorunması, həmçinin investorların hüquqlarının və qanuni mənafelərinin müdafiəsi bütün investorlara apardıqları fəaliyyətdə bərabər imkanların yaradılması diqqət yetirilən xüsusi amillərdir. Digər tərəfədən, müasir tələblərə cavab vermək üçün investisiya fəaliyyətinin həyata keçirilməsi ilə bağlı investorlara göstərilən xidmətlər rəqəmsallaşdırılır. "Bir pəncərə" prinsipinin tətbiqinin bu məqsədə xidmət edəcəyi üçün planlaşdırılan dəyişikliklərin investisiya mühitini daha da sağlamlaşdıracağını deyə bilərik. Azərbaycanda investorların hüquqlarının tam şəkildə qorunmasını təmin edən hüquqi bazanın yaradılması investisiyaların cəlbi üçün əsas şərtdir.

## İstifadə edilmiş ədəbiyyat

1. "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu, 22 iyun 2022-ci il, https://e-qanun.az/framework/50048
2. https://stat.gov.az/source/entrepreneurship/
3. Investment and Investment Finance in Europe, Economic editors: Atanas Kolev, Tanja Tanayama and Rien Wagenvoort, Economics Department (EIB), 2013
4. Investment Report 2021/2022: Recovery as a springboard for change, European Investment Bank, 2022
5. Bloom N., Bond S., Van Reenen J. (2007), "Uncertainty and investment dynamics", Review of Economic Studies, vol 74, 391–415.

6. OECD, (2012). “Innovation in the crisis and beyond”, in OECD Science, Technology and Industry Outlook, 2012, 21-57, OECD.

7. Levine R., (2005). “Finance and Growth: Theory and Evidence,” in Handbook of Economic Growth, eds. Aghion, P. & Durlauf, S. N., 865-934, Amsterdam: Elsevier.

8. Kaplan S.N., Zingales L. (2000). “Investment-Cash Flow Sensitivities Are Not Valid Measures of Financing Constraints”, Quarterly Journal of Economics, 115:2, 707-12.

9. United Nations, World Investment Report 2021, Unıted Natıons Conference on Trade and Development., https://unctad.org/system/files/official-document/wir2021_en.pdf

## STRENGTHENING THE LEGAL FRAMEWORK FOR INVESTMENTS IN AZERBAIJAN

**M.Mammadli**
Doctor of Philosophy in Economics, Associate Professor
Azerbaijan State University of Economics

***Abstract:*** *Investments are one of the main elements that create new technologies, new management methods, new jobs, new products and access channels to world markets. States are trying to attract investment into their economies by creating more favorable political and economic conditions and applying various incentive and protective measures. Azerbaijan has updated its legal framework in this direction to increase the attractiveness of investments in the country's economy. The article talks about the adopted legislative changes on investments in Azerbaijan.*

***Keywords****: law, investment activity, state regulation, electronization, national regime*

## УКРЕПЛЕНИЕ ЗАКОНОДАТЕЛЬНОЙ БАЗЫ ДЛЯ ИНВЕСТИЦИЙ В АЗЕРБАЙДЖАНЕ

**М.М.Маммадли**
доктор философии по экономике, доцент
Азербайджанский государственный экономический университет

***Резюме:*** *Инвестиции являются одним из основных элементов, создающих новые технологии, новые методы управления, новые рабочие места, новые продукты и каналы доступа к мировым рынкам. Государства пытаются привлечь инвестиции в свою экономику, создавая более благоприятные политические и экономические условия, применяя различные стимулирующие и защитные меры. Азербайджан обновил свою правовую базу в этом направлении для повышения привлекательности инвестиций в экономику страны. В статье говорится о принятых законодательных изменениях об инвестициях в Азербайджане.*

***Ключевые слова:*** *право, инвестиционная деятельность, государственное регулирование, электронизация, национальный режим*

**Elmi redaktor: i.e.d., dos. M.Gülalıyev**
**Çapa təqdim edən redaktor: i.f.d., dos. N.Qədimli**
**Daxil olub: 08.02.2023**
**Çapa qəbul edilib: 15.02.2023**